UOT 781

**Gülxanım Əsədzadə**
**Bakı Musiqi Akademiyası**
**dissertant**
**E-mail: asadzade-gulxanim@mail.ru**

# ZİKR MƏRASİM MUSİQİSİNİN ARAŞDIRILMASINA DAİR

**Xülasə**: Təqdim edilmiş məqalə zikr mərasim musiqisinin araşdırılmasına həsr edilmişdir. Məqalədə zikr musiqisinin müxtəlif xalqların etno-mədəni həyatında formalaşması və lokal adət-ənənələri barədə məlumat verilir. Bu mövzuda aparılmış tədqiqat işlərinin hansı aspektlərdən yanaşılması barədə söz açılır.

**Açar sözlər:** dini musiqi, zikr, islam, tədqiqat, mərasim, araşdırma, ritual

Müasir etnomusiqişünaslıqda musiqinin dini mərasim ənənələri kontekstində tədqiq olunması çox mühüm istiqamətlərdən biri hesab olunur. Lakin müxtəlif lokal ənənələr daha çox xristian mühitində araşdırıldığı üçün, islam mədəniyyəti bir qədər kölgədə qalmışdır. Bu baxımdan İslam dininin təməl sütunlarından birini təşkil edəm zikr mərasimi, onun müxtəlif xalqların həyatında təzahür formaları, lokal xüsusiyyətləri barədə tədqiqat işinin aparılması mühüm məsələlərdən biridir.

Zikr prosesi İslam dini praktikasında Allahı xatırlamaq, anmaq məqsədi ilə adının dəfələrlə təkrarlanmasına deyilir. Ərəb dilindən tərcümədə zikr sözü (ذكر) yada salma, xatırlama, anma mənalarını verir. Bu proses professional din xadimləri, eləcə də adi insanlar tərəfindən də həyata keçirilə bilər. Zikr zamanı müəyyən dua meditativ üsul vasitəsilə dəfələrlə təkrar olunur. Ayin zamanı ifaçı müəyyən ibadət duruşu alaraq, xüsusi ritmik hərəkətlər edir. Ritualın icrası zamanı duanın deklamasiyasının metro-ritmik təşkili bədənin ritmik hərəkəti ilə üst-üstə düşməsi səbəbindən mərasim iştirakçısı ritmik hərəkətlər icra edərkən mütləq şəkildə nəfəsalma prosesinə nəzarət etməlidir.

Ortodaksal İslam dini kontekstində zikr mərasimi qəbul olunmuş rituallarla bağlı olmamış və daha çox dini inanc sisteminin batil tərəfinin təzahürü kimi çıxış etmişdir. Bu səbəbdən ritual zamanı səslənən ezoterik və mistik səciyyəli musiqi şəriət baxımından qəbuledilməzdir. Zikr musiqisinin tarixi semantikası geniş sakral sferanı əhatə edərək, bilavasitə Allaha sitayiş, Məhəmməd peyğəmbərin mədhi və sufi ustadların həyatı ilə bağlıdır. Mərasimin digər ünsürləri ilə yanaşı transsendent səciyyəli musiqi icraçının ruhu və Allah arasında sanki körpü rolunu oynamış olur. Qeyd etmək lazımdır ki, ibadətin icrası zamanı məhz güclü energetik potensiala malik olan musiqi ünsürü vasitəsilə mərasim icraçısı ən ali ruhsal məqama ucalır.

İbadətin bir növü hesab edilən zikr mərasiminin prosesi demək olar ki, bütün İslam dünyasında müxtəlif formalarda (fərqli musiqi üslubları, oxuma və mərasimlər) geniş tətbiq olunmaqdadır. Sözügedən mərasim musiqisində müxtəlif xalqların lokal adət-ənənələrini, mənəviyyat haqqında ümumbəşəri ideyalarını aydın sezmək mümkündür. Həm fərdi, həm də kollektiv şəkildə həyata keçirilən mərasim Hindistan, Pakistan, İraq, Türkiyə, Azərbaycan, Çeçenistan Respublikası, Çin Xalq Respublikası, Mərkəzi Asiya ölkələrində fərqli quruluşda baş tuta bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, hər bir ölkədə zikr mərasimi müxtəlif tərtibatda baş tutur. Məsələn, Türkiyədə ikonik "fırlanan dərvişlər", yəni "səma" mərasimi ən məşhur zikrlərdən biri hesab olunur. XIII əsrdə yaşamış fars şairi və ilahiyyatçısı Cəlaləddin Ruminin adı ilə bağlı olan Mövlana (ustad) mərasimi öz unikallığı ilə seçilir. Burada rəqs və musiqi vəhdət təşkil edir. İcraçı (yəni dərviş) bir əli yuxarı Allaha, digər əli isə aşağı torpağa baxaraq dairəvi hərəkət edərək fırlanır. Daim dairəvi hərəkətdə olan rəqs material dünyadan uzaqlaşaraq, Allaha qayıtmaq fəlsəfi-təfəkkürü ilə dolu ruhu simvolizə edir. Bu fəlsəfi-təfəükkürün yaranmasında ney alətinin tembrinin xüsusi önəmi vardır. Təsəvvüf musiqisinin digər növlərindən fərqli olaraq, Mövlana mərasiminin musiqisi təfəkkür suggestiv xarakteri daşıyır. Məhz bu səbəbdən ney aləti həsrət, hüzn dolu xarakteri aşılayır.

Şimali Hindistan və Pakistanda zikr mərasim musiqisi "Qavvali" (कव्वाली) adlanır. Bu musiqi sənətinin 7 əsrdən çox yaşı var. Qavvali sözü ərəb dilindən tərcümədə "nitq" anlamına gəlir. Burada mətn və musiqi arasında emosional vəhdət hökm sürür. Bu sənət nümunəsi XIII əsrə təsadüf edir. Belə ki, XI əsrdə təsəvvüf məktəbinin nümayəndələrindən biri olmuş Nizamiddin Auliyanın fədaisi olmuş Əmir Xüsro XIII əsrdə Türkiyə, İran, Ərəbistan və Hindistanın bir çox yerlərindən musiqi fraqmentlərini və mətnlərini toplayaraq yeni bir sənət forması yaratdı. Ənənəvi olaraq Şimali Hindistan və Pakistanda Qavvali böyük, ruhani enerjiyə malik sufi müqəddəslərinin ziyarətgahlarında ifa olunur. Adətən, kişilər tərəfindən ifa olunan deklamasiya xarakterli musiqi tabla və mridanq aləti ilə müşayiət olunur. Müasir dövrümüzdə Qavvali musiqi sənəti dünya səhnələrində, konsert zallarında, musiqi festivallarında səslənir.

Qnaua (قناوة) zikr mərasim musiqisi isə Şimali Afrika (Mərakeş, Əlcəzair) etnik azlıqlarının adı ilə bağlıdır. Lakin onların əcdadları Afrikanın Şimalı ilə deyil, Qərbi ilə bağlıdır. 1591-ci ildə Mərakeş sultanı Əhməd əl-Mənsur (1578-1603) Afrikanın Cənubundakı Sonqai imperiyasını fəth edir və bir çox qul Şimali Afrikaya qul kimi gətirilir. Bununla da Qnaua adlı mistik nizam yaranır. Bu mərasim musiqisinə Afrika xalqlarına məxsus lokal musiqi və rəqs nümunələri aid

edilir. Qaradərililər Qnaua mərasimini İslam tarixinin mühüm şəxsiyyətlərin- dən biri, Məhəmməd Peyğəmbərin azad etdiyi Həbəş köləsi və Azanı oxuyan ilk müəzzini Bilal ilə səciyyələndirirdilər. Lakin qeyd etmək lazımdır ki, bu mərasim İslam dünyası ilə bağlı olsa da, Qnaua mədəniyyəti Afrika animist inanclarının aspektlərinin inikasını saxlayır. Onların inanclarına görə ruhlar aləmində canlılarla Tanrı arasında vasitəçi kimi çıxış edən əcdadların ruhu yaşayır. Onların musiqisi isə bu qeybi dünya ilə əlaqə qurmağın bir yoludur. Qnaua mərasimlərində əl çalmaq, akrobatik rəqs, zərb alətində xüsusilə “qraqab” alətində ifa mühüm önəm kəsb edir. Bu ifa nəticəsində “poliritmik sinkopa”( https://sites.barbican.org.uk/sufimusic/) meydana gəlir. Mərasimin icrası zamanı musiqi və rəqs pis ruhları azad edən, xəstəlikləri, uğursuzluqları və depressiyanı sağaldan bir müalicə prosesi kimi qəbul edilir. XX əsrin ortalarından etibarən Qnaua musiqiçiləri professional səhnələrdə ifa etməyə başladılar. Artıq Qnaua mərasim musiqisi kimi deyil, caz, rok, fank, hip-hop kimi musiqi janrları ilə sintez şəklində eşidilməyə başladı.

Lakin bütün deyilənlərlə yanaşı, bir qayda olaraq ölkəsindən və keçirilmə formasından asılı olmayaraq mərasim müsəlman əqidəsinin bünövrəsini təşkil edən “La ilahə İlla Allahu” (“Allahdan başqa ilah yoxdur”) sözləri ilə başlayır. Hətta bəzi regionlarda bu sözlər fasiləsiz olaraq 101 dəfədən 1001 dəfəyə qədər deyilə bilər. Bu zaman orta templə başlanan təkrar daha sonra öz tələffüz tempini daha da sürətləndirir.

Müxtəlif lokal variantlara malik olan zikr mərasim musiqisini şifahi ənənələrlə yanaşı, yazılı ənənələrə əsaslanan professional musiqidə, folklorizasiya olunaraq müxtəlif səhnələrdə eşitmək mümkündür.

Şərq xalqlarının mənəvi dünyasının və bədii mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan zikr mərasim musiqisi yarandığı dövrdən bugünə qədər daim tədqiqatçıların maraq dairəsində olmuş, baxışlar sistemi kimi araşdırma predmetinə çevrilmişdir. Səciyyəvidir ki, zəngin bədii-mənəvi potensialı ilə seçilən zikr musiqisi təkcə Şərq aləminin yox, həm də Qərb tədqiqatçılarının araşdırma obyektinə çevrilmişdr. J.Dyurinq, Q.Epperson, M.Eliade, M.Rizvani, X.Mallox, İ.Şukurzoda, N.İmomi, İ.Xokimi, A.Nazarov, O.İbrahimov və başqalarının elmi-tədqiqat işləri buna nümunə ola bilər. Xüsusilə qeyd etmək lazımdır ki, J.Dyurinq (Musique et extase : l'audition mystique dans la tradition soufie [Music and Ecstasy: Mystic Audition in the Sufi Tradition](Paris : A. Michel, 1988)) musiqişünas ekspedisiyalarından toplanmış folklor nümunələri əsasında tədqiqat işi aparmışdır.

Zikr mərasim musiqisinin yaranma tarixi barədə fikirlər müxtəlifdir. Belə ki, görkəmli sovet tədqiqatçısı, şərqşünas, türkoloq Y.E.Bertels (1890-1957) zikr mərasim musiqisini sufi məclislərinin ayrılmaz tərkib hissəsi kimi təqdim edir

(Заметки по поэтической терминологии персидских суфиев, 1965). Tacik tədqiqatçısı A.Nizamov isə bu fikrə zidd olaraq qeyd edir ki, zikr mərasim musiqisinin mənşəyi zərdüştlük dini ilə bağlı olmuş, vəfat etmiş şəxslər üçün oxunan dualar silsiləsidir ("Суфизм в контексте музыкальной культуры народов Центральной Азии" 2000). Tanınmış türk tədqiqatçısı M.F.Köprülü (1890-1966) isə zikr mərasimi musiqisini və orada istifadə olunan hərəkətləri türk-monqol tərəkəmə tayfalarında ekstaz vəziyyətdə rəqs edən şamanlarla bağlı olduğu fikrini irəli sürmüşdür (Türk Tarih-i Dinisi, 1925). Bu fikir ilə həmfikir olan bir çox etnoqraflar, şərqşünas və türkoloqlar vardır. Onlara misal olaraq, V.A.Qordlevski (1876-1956), Y.V.Knorozov (1922-1999), O.A.Suxareva (1903-1983), A.L.Troitskoy (1899-1980), A.K.Borovkovu (1904-1962) demək olar.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən etibarən müxtəlif xalqların həyatında zikr mərasimi, onun tərtibatı və musiqisi barədə geniş tədqiqat işləri aparılmağa başladı. Uyğur etnomusiqişünası və kino rejissoru Mukaddas Mijit zikr mərasiminin tərtibatı və musiqisi barədə, eləcə də uyğur musiqisi haqda bir çox tədqiqatların müəllifidir. "The music of Central Asia" (2015) kitabında "Sufizm and the ceremony of zikr in Gjulja" (Cahpter 23, səh. 304-309) məqaləsində Çin Xalq Respublikasının Qulca (Ghulja) şəhərində yaşayan uyğur xalqının zikr və mövlud mərasimlərinin keçirilməsi barədə məlumat verilir. Məqalədə qeyd olunur ki, zikr mərasimi iki halda həyata keçirilir: Birincisi Məhəmməd Peyğəmbərin mövludu ilə bağlı, ikincisi isə hər bir müsəlman oğlanın həyatında önəmli günlərdən biri kimi. Müəllif kollektiv zikr zamanı ritm və nəfəsalma texnikası arasında əlaqəni təhlil etmişdir. Belə ki, əgər kollektiv zikrdə iki nəfəsalma olacaqsa, demək ki, iki vurğu olacaqdır. Burada ən vacib amil ritmik nəfəsalmadan istifadə edərək nizamlı vurğunun davam etdirirlməsidir. Hətta məqalədə nəfəsalma texnikasından istifadə edərək, ritm formalarını göstərən sadə ritmik transkripsiyalar da verilmişdir.

Musiqişünas Guzel Sayfullina "Traditions of sufi dhikr in the musical-poetical culture of tatar muslims" (Tatar müsəlmanlarının musiqi-poetik mədəniyyətində sufi zikr ənənələri) - (Musicologist 2019. 3 (2) səh. 126-145) adlı məqaləsində qeyd edir ki, zikr mövzusu tatarların öyrənilməmiş sahələrindən biridir. "Tatar zikri" nə liturgik ritualın bir hissəsi kimi, nə də sufi mədəniyyəti kontekstində tam dolğunluğu ilə araşdırılmamışdır. Buna səbəb sovet dövründə ateist dünyagörüşünün digər dinləri üstələməsi idi. Müasir dövrdə bir çox dini ritualların geri qaytarılması ilə birlikdə tatar-müsəlmanlarının həyatında zikr tətbiqi yenidən bərpa olunmaqdadır. Tatar etno-mədəni kontekstində zikr mərasim musiqisi haqqında çox az şey məlumdur. Bu baxımdan ərəb dilində yazılmış qədim əlyazma və çap mənbələri, XX əsrin son onilliklərində tatar etnomusiqişünaslarının lentə aldığı nümunələr xüsusi araşdırmalarını hələ də gözləməkdədir.

Bu nümunələr sufi zikrinin tatarlar üçün əhəmiyyətini, mətnlərinin struktur xüsusiyyətlərinin tədqiqində böyük rol oynayacaqdır. Məqalədə 1990-2000-ci illərdə Tatarıstan Respublikası (Rusiya) regionundan toplanmış folklor nümunələri, müsahibə və qeydlər sayəsində bəzi nəticələr əldə edilmişdir.

İtaliyalı tədqiqatçılar B.Pasilov və A.Aşirovun həmmüəllifi olduqları "Orta Asya sufi gruplarının ritüllerindeki "Cehri zikir" kavramı və onun etnografik özellikleri" (Gazi Türkiyat, Güz 2014/45: 193-302) adlı məqalədə Özbəkistan, Qazaxıstan kimi ölkələrin həyatında təsəvvüf ritualları, xüsusilə, "Cəhri zikr" yəni kollektiv zikrin etnoqrafik ünsürləri haqda məlumat verilmişdir.

L.Borodovskayanın "Исследование традиции суфийского тариката Ясавия в аспекте его влияния на татарскую исламскую культуру" – "Yasəviyyə təsəvvüf təriqəti ənənəsinin tatar islam mədəniyyətinə təsiri aspektində tədqiq" (Исламоведение. 2016. Т. 7. № 4. С. 103–109) adlı məqaləsi, "Традиции суфизма в татарской музыке" – "Tatar musiqisində sufizm ənənələri" adlı monoqrafiyası (Казань: Казанский государственный институт культуры, 2019. – 185 с.) tatar xalqının etno-mədəni mühitində, xalq və professional tatar musiqisində sufi islam simvollarına həsr edilmişdir.

Məşhur tacik musiqişünası A.Nizamov "Суфизм в музыкальной культуры народов центральной Азии" (Orta Asiya xalqlarının mədəniyyətində sufizm) adlı kitabında mövzuya müxtəlif aspektlərdən yanaşmış, zikrlərin ifası zamanı istifadə olunan mətn, məqam, musiqi alətləri və s. arasında müqayisəli təhlillər aparmışdır. Eləcə də, A.Nizamovun "Orta Asiya xalqlarının musiqi mədəniyyəti kontekstində təsəvvüf" adlı dissertasiya işində (1998) ilk dəfə olaraq orta əsr risalələri araşdırılmış, sözügedən xalqların həyatında müxtəlif mərasim və ayinlərin icrası zamanı istifadə olunan musiqi elementləri tədqiq edilmişdir.

S.D.Davlatovanın "Роль музыки в суфийских обрядах" – "Sufi ayinlərində musiqinin rolu" (Вестник музыкальной науки, 2013 с. 103-108)adlı məqaləsində İslamın mistik istiqaməti hesab edilən sufizmdə zikrin rolu araşdırılır. İki əsas sufi ritualın – zikr və səma təkamül məsələləri, eləcə də, icrası barədə geniş məlumat verilir.

Görkəmli macar etnomusiqişünası Y.Şipoş 1999-cu ildə Azərbaycanın bir sıra regionlarına (Quba, Şamaxı, Zaqatala, Qarabağ, Abşeron) folklor ekspedisiyaları təşkil edərək hər bir regionun etno-mədəni mühiti, lokal musiqi üslubu barədə dəyərli məlumatlar əldə etmişdir və bu məlumatlar "Azərbaycan el havaları. Musiqinin ilkin qaynaqlarında" (2005) adlı böyük tədqiqat əsərində cəmlənmişdir. Bu dəyərli araşdırmada etnomusiqişünas F.Xalıqzadə ilə birlikdə folklor ekspedisiyası zamanı Y.Şipoş Şamaxının Sündi kəndində zikr mərasimini lentə alırlar. Bu isə Azərbaycanda zikr mərasim musiqisi haqqında müəyyən fikirlərin yaranmasında müstəsna rol oynayır.

Məqaləyə yekun vuraraq qeyd etmək olar ki, zikr mərasim musiqisi xüsusi elmi ədəbiyyatda müxtəlif aspektlərdən araşdırılmışdır. Belə ki, ən müxtəlif xalqların, ölkələrin tədqiqatçıları tərəfindən zikr mərasiminin dini-fəlsəfi aspektləri, funksional əhəmiyyəti, qədim ənənələrə malik olan mərasimin lokal-regional xüsusiyyətləri araşdırılmışdır.

**Ədəbiyyat siyahısı:**


1. Aşirov A. – Pasilov B.A. Orta Asya sufi gruplarının ritüllerindeki "Cehri zikir" kavramı və onun etnografik özellikleri// Gazi Türkiyat, Güz 2014/45: 193-202
2. Mukaddas M. Sufism and the ceremony of zikr in Ghulja// The music of Central Asia, Chapter 24, 2007, p. 307-309
3. Давлатова С.Д. Роль музыки в суфийских обрядах//Вестник музыкальной науки, 2013, №2, с.133-108
4. Низамов А. Суфизм в контексте музыкальной культуры народов Центральной Азии. Автореферат дис. Доктора искусствоведения. Ташкент, 1998
5. Федорова Е.С. Музыка в сцфийской ритуальной практике// Исламоведение, 2014, №3, с. 65-71
6. Эскарханов Г.Л. Суфизм как мистико-философское учение в исламе// Исламоведение, 2011, №2, с. 72-77



**Гюльханум Асадзаде**


**ПО ИССЛЕДОВАНИЮ ЦЕРЕМОНИАЛЬНОЙ МУЗЫКИ ЗИКР**


**Резюме:**В данной статье речь идёт о местных традициях и формировани музыки зикр в этнокультурной жизни разных народов. Автором рассмотрены разные аспекты исследований, проводимых по этой теме.



**Ключевые слова:** религиозная музыка, зикр, ислам, исследования, церемония, ритуал



**Gulkhanim Asadzadeh**


**ON INVESTIGATION OF CEREMONIAL MUSIC ZIKR**


**Summary:** The presented article is devoted to the study of zikr music. The article provides information about the formation of zikr music in the ethno-cultural life of different peoples and local traditions. We are talking about the aspects of the research conducted on this topic.



**Key words:** religious music, zikr, Islam, research, ceremony, ritual

**Məqalənin redaksiyaya daxil olma tarixi:10. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**